Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# *Söz mülkünün Xaqanı - Xaqani Şirvani*

**Xaqani Şirvani 890-illik yubileyi münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2016**

**Tərtibçi:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Ixtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
Əməkdar mədəniyyət işçisi

**Söz mülkünün Xaqanı**: metodik vəsait / tərt. ed. Aynurə Əliyeva, ix. red. və burax. məsul Şəhla Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 33s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016.**

# Tərtibçidən

Dünya ədəbiyyatı tarixində elə böyük sənətkarlar vardır ki, onların yaratdığı sənət əsərləri tək öz xalqının deyil, bir çox xalqların fikri inkişafına təsir göstərərək, əsrimizə qədər yaşamış və öz müəlliflərinin şərəfli adını yaşatmışdır. Dahi Azərbaycan şairi Əfzələddin Xaqani Şirvani də dünya ədəbiyyatının belə ölməz simalarındandır. Əfzələddin Xaqani Şirvani təkcə Azərbaycanın yox, bütün Yaxın Şərq ədəbi-içtimai fikrinin XII əsrdə yetirdiyi ən görkəmli simalardan biri, sənətinin bəzi məqamları ilə birincisidir. Şair klassik Şərq poeziyasının bütün janrlarında yüksək sənətkarlıq nümunələri yaratmışdır. Xalqımız böyük sənətkarın xatirəsini daim əziz tutur. Əsərləri dönə-dönə nəşr olunur, hər kəs, həm böyüklər, həm də məktəblilər tərəfindən sevilərək oxunur. Ə.Xaqaninin ömür yolu bəşəriyyətə və insanlığa nümunə və örnəkdir. Bu il Əfzələddin Xaqaninin 890 illik yubileyi olur. Bu münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə *"Azərbaycan və dünya poeziyasının qiymətli incisi"* adlanır və Ə. Xaqaninin həyat və yaradıcılığından bəhs edir. II hissədə isə Ə. Xaqani yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

***İstəmirəm adımı çağıralar Xaqani.***
***Mən yoxsullar şairi, Xəlqaniyəm,***
***Xəqani***



Şamaxı torpağının yetirdiyi böyük Azərbaycan şairlərindən biri, dünya şöhrətli Əfzxələddin İbrahim ibn Əli Nəccar Xaqani Şirvani 1126-cı ildə (hicri təqvimi ilə 520-ci ildə) Şamaxı yaxınlığındakı Məlhəm kəndində anadan olmuşdur. Xaqani yoxsul-zəhmətkeş, hörmətli bir ailədə böyümüşdür. Onun ruhən dəbdəbəyə, cah-calala, şah sarayına bağlana bilməməsinin bir səbəbi də belə bir ailədən çıxmasıdır. Şair kasıb ailədə doğulmasına baxmayaraq o ziyalı çevrəsində dünyaya göz açmış və mükəmməl təhsil almışdır. Şairin babası toxucu, atası dülgər, əmisi və əmisi oğlu isə həkim və filosof idilər. Xaqani dini müxtəlifliyə də yaxından bələd olmuşdur. Çünki onun anası xristian qızı idi. Ərə getdikdən sonra dinini dəyişib, İslamı qəbul etmişdir. Anasının atası sərkərdə, babası isə möbüd idi. Atası, oğlu İbrahimi (Xaqanini) də dülgər etmək istəyir, onun təlim-tərbiyəsinə az diqqət yetirirdi. Əmisi Kafiəddin Ömər ibn Osman onu körpəlikdən öz himayəsinə götürür. Quranı, dilçiliyi, ədəbiyyat, riyaziyyat və başqa yazıları öyrədir. Xaqani ərəb və fars ədəbiyyatını mükəmməl öyrənmiş, öz müəllimi Əbul-ula Gəncəvi vasitəsi ilə Şirvanşah sarayına dəvət olunmuşdur. Xaqani gözəl istişarə və təşbeh ustasıdır. Bununla yanaşı şairin yaradıcılığında mədhiyyələr də geniş yer tutur. Şair həmçinin mürəkkəb bir şairdir. Bir çox hallarda onun sözlərini anlamaq çətindir. Fars dilində yazıb-yaratmış “Töhfətül-İraqeyin” əsəri ilə Azərbaycan ədəbiyyatında poema janrının əsasını qoymuşdur. Xaqani dünyanı kəşf etməyə, dərindən öyrənməyə

böyük həvəs göstərirdi. Kiçik yaşlarından Xaqani əmisi Kafiəddin Ömər ibn Osmanın himayəsində böyüyüb boya-başa çatmış, hələ gənc yaşlarında dağ çeşməsi kimi çağlayan nadir poetik istedadı, yeri gəldikdə bədahətən, özü də izahlı və mənalı şeir demək hünəri onu hələ onsəkkiz yaşında ikən o zamanın yaxın-uzaq ölkələrdə sayılan dövlətlərindən olan Şirvanşahlar səltənətinə gətirmişdir. Bu parlaq istedad Məniçöhrün xüsusi fərmanı ilə dövrünün ədəbi içtimai mühitində ən ali məqam sayılan “Xaqani” təxəllüsünə layiq görülmüşdür. Xaqani dünyanı kəşf etməyə, dərindən öyrənməyə böyük həvəs göstərirdi. Belə ki, o, Şirvanşahın qəzəbinə tuş gələcəyinə məhəl qoymadan  Xorasana və dövrünün ədəbiyyat mərkəzi hesab olunan Bağdada səfər etmiş, burada “Töhfətul-İraqeyn” poemasını və məşhur divanını yazmış, sonralar isə “Mədain xərabələri” qəsidəsini yazmağa müvəffəq olmuşdur. Şair İsfahandan keçərkən bu şəhəri tərənnüm edən şeirlər yazmışdır. Xaqaninin sosial və emosianal fenomenlərdən  təsirlənərək yaratdığı “Xəmt-əl Qəraib” və “Münşəat” da onun məşhur divanına daxildir. Bu səfərdən qayıtdıqdan sonra Xaqani ilə  Şirvanşah arasında böyük problemlər yaranır, şair həbsxanaya düşür. Xaqani “Həbsiyyə” şeirini də bu dövrdə qələmə almışdır. İkinci Həcc səfərindən sonra Xaqani öz oğlunu və həyat yoldaşını itirmiş, bütün bunlar onu tərki-dünyalığa və ruh düşkünlüyünə düçar etmişdir. Həyatının son illərində Təbrizə köçmüş böyük şair 1199-cu ildə (hicri tarixinin 529-cu ilində Təbrizdə vəfat etmiş və buradakı Məqbərətüs-şüəra qəbristanlığında dəfn olunmuşdur. Onun qəbri indi də durur. Nizami Gəncəvi şairin ölümündən sonra ona mərsiyə yazır.

Hey deyirdim ki, mənə mərsiyə Xaqani yazar
Heyf, Xaqaniyə mən mərsiyə yazdım axır.

Ölümündən sonra onun poetik üslubu Əmir Xosrov Dəhləvi, Cami və s. kimi bir çox məşhur şərq şairləri üçün örnək təşkil etmişdir. Azərbaycan klassikləri kimi, Xaqani Şirvani də fars ədəbiyyatına daxil edilir. Buna baxmayaraq şairin Avropada tanınması işində ingilis şərqşünasların xidmətləri əlbəttə, inkaredilməzdir. Onların tədqiqlərində yeri gəldikcə şair haqqında yeni fikir və mülahizələrə təsadüf edilir. Xaqaninin məşhur "Töhfətül İraqeyn" əsəri, eləcə də bir sıra qəsidə və qəzəllərinə E. Braunun verdiyi təhlil diqqəti cəlb edir.
Xaqani Şirvaninin anadan olmasının 890 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Bu şairi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq və eyni zamanda oxucularda mütailə vərdişi aşılamaq məqsədi daşıyır. Xaqani Şirvaninin 890 illik yubileyi ilə əlaqədar kitabxanada kitab sərgisi keçirilməsi məqsədəuyğundur. Sərgiyə müxtəlif başlıqlarlar verilə bilər. Bunlardan "Yoxsullar şairi Xəlqani", "Şərqin şairi", "Poetik istedadla həyat həqiqətinin nadir vəhdəti", "Böyük filosof-Xaqani Şirvani", "Poemanın banisi", "Azərbaycan və dünya poeziyasının qiymətli incisi","Mən bir quşcuğazam cismim qəfəsdədir", "Müdrüklük qalası", "Kamal mayasında bir zərrəyə dönən şair", "Şaham, mənim əlimdədir bu söz mülkü, söz diyarı" və s. misal göstərmək olar. Bununla yanaşı şairin müxtəlif illərdə çəkilmiş foto stendi, Xaqani Şirvaninin kitabları sərgidə öz yerini alır. Şairin öz əsərləri ilə yanaşı, müxtəlif ədiblərin şair haqqında yazdığı materiallar da sərgidə nümayiş olunur. Görkəmli insanların şair haqqında söylədikləri kəlamlar və şeir parçaları da sərgidə verilir.



















# Görkəmli şəxsiyyətlərin şair haqqında söylədikləri fikirlər :

Xaqani poeziyası öz dövründən başlayaraq bu günə qədər Şərqin, o cümlədən Azərbaycanın bir çox sənətkarları üçün örnək, nümunə olmuşdur.

Sənətin Xaqani zirvəsindən sonra şeirdə elə yeni qeyri-adi bir zirvə yaranır ki, bu zirvə ən yüksək, ən uca zirvə kimi qəbul olunur.

**Xəlil Yusifli**
*Professor*

Xaqani zəmanəsindəki içtimai hadisələrə qarşı son dərəcə həssas olmuşdur. O, böyük bir ədəbi irs qoyub getmişdir.

**Məmmədağa Sultanov**
*Əməkdar mədəniyyət işçisi*

Xaqani yaradıcılığında azadlıq meyli daha çox qüvvətlidir.

Xaqaninin gözəl əsərləri, məğrurluğu, dərin bilikli və hazırcavab bir adam olması Azərbaycan xalqının yaddaşında əsrlər boyu yaşamışdır.

**Həmid Araslı**
*Ədəbiyyatşünas*

Azərbaycan şairləri  daha çox Xaqaninin şeir sənətinə yeni üslub gətirməsi ilə fəxr edirdilər. Xaqani bütün əsərlərini yüksək sənətkarlıqla yazmışdır.

**Azəroğlu**
*Şair*

Xaqaninin vətənpərvərlik mövzusunda yazılmış əsərləri arasında "Savalan dağının tərifi" öz qiymətli fikri-bədii keyfiyyətləri etibarı ilə xüsusi yer  tutur.

Xaqaninin əsərlərində  Azərbaycan ruhu, türk ahəngi həmişə bariz şəkildə özünü göstərmişdir.

**Bəkir Nəbiyev**
*Ədəbiyyatçunas*

Əfzəlddin Xaqaninin 890 illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, *"Mən bir quşcuğazam cismim qəfəsdədir"* adlı şeir müsabiqəsidir. Kitabxanaçı ilk öncə şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri  əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq Əfzəlddin Xaqaninin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından söhbət açır. Nəfis şəkildə  nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır.
**Kitabxanaçı:**  Min ildən artıq ədəbiyyat tarixinə malik olan Azərbaycan xalqı dünya şöhrəti qazanmış bir çox klassik söz

ustadları yetişdirmişdir. Xətib Təbrizi, Qətran Təbrizi, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Nəsimi, Əssar, Füzuli, Xətai, Saib kimi orta əsr klassik şairlərimiz içərisində Əfzəlddin Xaqani Şirvaninin özünəməxsus yeri vardır. Xaqani Şirvanin anadan olmasından 890 il keçir. Bütün bu vaxt ərzində şairin biri-birindən gözəl əsərləri Yaxin və Orta Şərq xalqlarının dərin marağına səbəb olmuş, onun son dərəcə poetik və fəlsəfi məzmunlu şeirlərinə klassik şairlər nəzirələr, bənzətmələr yazmışdır. Xaqaninin "Divan" və "Külliyyat"ı əsrlər boyu məhşur xəttatlar tərəfindən üzü köçürülə-köçürülə yayılmış, dünyanın kitab xəzinələrinin bəzəyi, öz dövrünün şeir və sənət aşiqlərinin dillər əzbəri ola-ola, bizə qədər gəlib çatmışdır. Xaqani böyük bir ədəbi irs qoyub getmişdir. Şərq poetikasının bütün xüsusiyyətlərini əhatə etmiş, şairin bədii-estetik, siyasi, içtimai və fəlsəfi fikirlərinin inikası kimi Azərbaycan ədəbiyyatının ən diqqətəlayiq abidələrindən biri kimi tanınmışdır. Ə.Xaqani hələ kiçik yaşlarından elmə, sənətə ciddi maraq göstərmiş, öz dövrünün görkəmli təbibi və filosofu olan əmisi Kafiəddin Ömər ibn-Osmanın təlimi sayəsində gözəl şeirlər yazmışdır. Şairin yaradıcılığı çox şahəlidir. Bu gün o dərin məzmunlu rubai və qitələri, ruhu oxşayan lirik qəzəlləri, fəxriyyə, qitə, mədhiyyə və fəlsəfə qəsidələri, zəmanə və zəmanə əhlindən şikayətləri, özü və əsil-nəsəbi haqqında yazdığı şeirlərdən bir güldəstə toplayıb iştirakçılara və hörmətli oxucularımıza təqdim edirik.
İlk olaraq birinci işrirakçi "Fəxriyyə" adlı şeiri qiraətli bir şəkildə deməyə başlayır.

Sənətkarlıq nədir? Bilmək istəsən,
Gəl onun sirrini sən məndən öyrən.

Kamal mayasında bir zərrə idim,
Günəş məqamına indi yüksəldim,

İndi söz məqamı aləmdə mənəm,
Şairlərdən üçqat ucadır rütbəm...

İkinci iştirakçı səhnədə öz yerini aldıqdan sonra "Şaham, mənim əlimdədir bu söz mülkü, söz diyarı" adlı şeiri deməyə başlayır.

Şaham, mənim əlimdədir bu söz mülkü, söz diyarı,
Bu dünyada tək mənimdir söz mülkünün ixtiyarı.

Mənim bakir sözlərimdir xasiyyətdə ruh tilsimi,
Mənim qəlbim nurlandırır ağılları işıq kimi...

Üçüncü iştirakçı isə şairin gözəl əsərlərindən biri olan "Mənim könlüm müəllimdir" şeirini qiraətli bir şəkildə deməyə başlıyır.

Mənim könlüm müəllimdir, dizim üstə dəbistanı,
O şagirdəm ki, öyrəndim sükut ilə əlifbanı.

Nə hər dildən olar məktəb, nə hər şagird əzbərxan,
Nə hər qətrə olar nisan, nə hər dərya sədəf kimi...

Dördüncü iştirakçı "Paxılları məzəmmət " qəzəlini demək üçün səhnəyə yaxınlaşır.

Nə zaman ayrılarsam bu bağdan, bu çəməndən,
Yaxın ollam o anda yeganə xaliqə mən.

Təxtü tacım, üzüyüm yoxdur Süleyman kimi,
Dəm vururam Alahdan abid bir insan kimi...

Sonda münsiflər heyəti qiraəti ilə fərqlənən iştirakçıları mükafatlandırır.

Ə.Xaqanin 890-illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də "sual-cavab gecəsi"dir. Sual- cavab gecəsi də başqa tədbirlər kimi oxucular arasında mütaliyəyə olan marağı artırmaq və oxu vərdişi yaratmaq xüsusiyyəti daşıyır. Xaqani sevərlər, ümumiyyətlə kitab sevərlər toplaşaraq tədbirdə iştirak edirlər. İlk öncə kitabxanaçı oxucuları salamlayaraq gəldikləri üçün hər kəsə ayrılıqda təşəkkür etdikdən sonra Ə.Xaqani haqqında qısa məlumat verir. Daha sonra kitabxanaçı ilk suala keçid alır.

**Sual:** Sizcə Xaqani Şirvani kimdir?
**Cavab:** Xaqani Şirvani Azərbaycanda İntibah dövrü ədəbiyyatının ilk qüdrətli, dahi şairidir. O, Nizami Gəncəviyə qədər ədəbiyyata güclü içtimai humanist məzmun və yüksək sənətkarlıq gətirmişdir. Azərbaycan ədəbiyyatında ilk poemanın müəllifi olmuş, çoxəsirlik tarixə malik qəsidə janrını əlçatmaz bir yüksəkliyə qaldırmışdır. Onun əsərləri çoxcəhətli humanist məzmunu ilə seçilir. XII əsr Azərbaycan İntibahı özününün ən yüksək zirvəsinə Xaqani poeziyasının çiyinlərində, onunla birlikdə addımlayırdı.
**Sual:** Xaqaninin vətənpərvərlik mövzusunda yazdığı şeirlərdən bir nümunə deyə bilərsinizmi?

**Cavab:** Şamaxı! Ey mənim sevimli yurdum,
Mən sənin qoynunda xaniman qurdum.

İndisə acığın tutmuşdur mana,
Sənin qucağından ayrılsam, ana,-

Ümidim, pənahım Təbrizdir, Təbriz

O şəhər də mənə mehriban, əziz.

Siz mənə həyatı etdiniz əta,
Sən mənə anasan, Təbrizsə ata.

Anasından küsən körpə bir uşaq-
Ata ağuşunda yer tapar ancaq!

**Sual:** Xaqani oğuz türkü olduğunu öz əsrlərində dönə-dönə xatırladır. Deyə bilərsinizmi, bu hansı əsərində daha qabarıq şəkildə önə sürülmüşdür?

**Cavab: I.** Şair əslən oğuz türkü ailəsində doğulmuşdur. "Töhfətül İraqeyin" əsərində bununla bağlı yazır: "Bir əcəm türüyəm, dəricə deyən, yalvac tanıyanam, tanrı istəyən". Buradakı əcəm türkü ifadəsi eynilə bu günkü Azərbaycan türkü sözünün sinonimi kimi qəbul edilə bilər. Maraqlıdır ki, burada şair Allah sözü yerinə onun türk qarşılığı olan Tanrı və peyğəmbər sözünün "yalvac" sözünü işlədir.

**II**. Şair başqa bir əsərində də, əcəm türklərinin (azərbaycanlıların) şairi olduğunu, onların qəmini çəkdiyini qeyd edir. VII –XII yüzilliklərdə ərəbcə və digər dillərdə yazmış başqa Azərbaycan şairlərinin şeirlərində olduğu kimi, Xaqani yaradıcılığında da Azərbaycan xalqının etnik cizgiləri sözün geniş mənasında şeirə gətirilmişdir. Farsların Xaqanini oxuyarkən "türk qoxusu gəlir" deməsini Firidun bəy Köçərli qeyd etmişdir. Bundan başqa bir çox tədqiqatçılar da ərəb-fars dilinin Xaqaninin öz doğma ana dili olmadığını, bu dilləri mədrəsədə mənimsədiyini dəfələrlə qeyd etmişlər.

**Sual:** Xaqani Şirvani yaradıcılığından nə deyə bilərsiz?

**Cavab:** Xaqaninin zəngin ədəbi irsi 17 min beytlik lirik şeirlər divanından, “Töhfətul-İraqeyn” poemasından, epistolyar nəsrin maraqlı nümunələri olan 60 məktubdan, rübailərindən ibarətdir. Xaqaninin divanında və ümumiyyətlə yaradıcılığında qəsidə janrı mühüm yer tutur. Yaxın və Orta Şərqin İntibah dövrü ədəbiyyatında qəsidə janrının ən görkəmli nümayəndəsi möcüzəsini Xaqani qəsidə janrında göstərmişdir. Bundan başqa Xaqani məsnəvi və mədhiyyə ustadı kimi də tanınmaqdadır. Təbiidir ki, bunlar Xaqani irsinin hamısı deyildir.

**Sual:** Xaqani yaradıcılığında ən çox diqqəti cəlb edən əsas keyfiyyət hansıdır?

**Cavab:** Yenilikci, orijinal sənətkar olan Xaqaninin yaradıcılığının əsasını dərin və güclü humanizm təşkil edir. “Uşaqlıqdan adətim bu olmuşdur ki, inciyim, amma incitməyim”. Bu sözlərin sahibi olan şair heç də şərə qarşı laqeyidlik, mərhəmət göstərməmişdir. Onun yaradıcılığındakı humanizmi, yunan fəlsəfəsinə tənqidi münasibəti də məhz bu əxilik dünyagörüşü ilə bağlılıq müəyyənləşdirilir.

**Sual:** Xaqaninin öz valideyinlərinə münasibəti onun əsərlərində öz əksini necə tapır?

**Cavab:** Xaqani əsərlərində ata-anasından ən geniş ölçüdə söz açan bir şairdir. Kürəkəni Vəhiəddinə yazdığı məktuba görə ata-anasının ilki olan Xaqanidə valideyin məhəbbəti çox qüvvətli olmuşdur. Şair atasını “Mühəndis ləqəbli şeyx”, “qızıl əlli”, “yaradıcı”, “qoca dülgər”, “sənətin piri” kimi uca sözlərlə

tərif edir. “Töhfətül-İraqeyn”-də şair anasının keçmişlərdə Yaxın Şərqdə ad çıxarmış qadınlardan olan Rəbiə ilə adaş olduğunu yazır. Şairin yazdığına görə onun anası “Zuitab torpağında” doğulmuşdur. Xaqaninin yazdığına görə Rabiənin atası “Fiakusi-Kəbir” ləqəbli bir ordu başçısı, babası isə nəsturilərin xəlifəsi olmuşdur. Şairin yüksək mənəviyyatlı bir şəxsiyyət kimi yetişməsində Rabiənin rolu böyük, əməyi çox olmuşdur. Xaqaninin yazdığına görə anası ölərkən oğluna son sözləri: “Adın ölməz olsun” olmuşdur.

**Sual:** Xaqani Şirvaninin ailəsi ilə bağlı nələri qeyd edə bilərsiz?

**Cavab**: Xaqaninin yaradıcılığı onun şəxsi və ailə həyatı ilə sıx bağlıdır. O, özünün evlilik həyatını genişliyi ilə yazıya almışdır. Bu baxımdan, Yaxın Şərq və Orta Asiyada ona oxşar ikinci bir şair yoxdur. Şairin yaradıcılığını mükəmməl öyrənmək üçün onun ailə həyatı və ailəsi ilə bağlı olan yazıları oxucular tərəfindən dərin mənimsənilməlidir. Şairin kürəkəni Şəhabəddin Şirvaniyə göndərdiyi məktubundan öyrənirik ki, Xaqani ilk kərədən çox-çox sevdiyi, vurğunu olduğu bir kəndli qızı ilə evlənmiş, 25 il onunla xoşbəxt yaşamışdır. Şair öz ömür-gün yoldaşına bir çox şeirlər yazmışdır.

**Sual:** Xaqani Şirvaninin yaradıcılığında özü haqqında fikirlərindən misal göstərə bilərsinizmi?

**Cavab: I.** Xaqani olmuşdur sözün xaqanı,
Doludur ləl ilə sözünün canı.
Sözə bu gün elə rövnəq verdi ki,
Fəth edib onunla bütün dünyanı.

**II.** Şeir səmasının günəşiyəm mən,
Üstünəm əsrimin şairlərindən.
Günəş kainatının şahı olsa da,
Sözümə qul olur hər səhər erkən.

**III.** Xaqani, səndə bu himmət var ikən,
İstəmə fələkdən öz ruzini sən.
O sənə ruzini necə verər ki,
Özü ruzi gözlər zəhmət çəkəndən.

**IV.** Kal meyvə deyiləm kölgədə qalam,
Günəşəm, gərdişim bu sonsuz aləm,
Kişilikdə haqqı olmayanların
Namərdəm başına ləçək salmasam.

Oxucuların sevərək və xüsusi fəallıqla iştirak etdiyi tədbirlərdən biri də kitabxanaçının keçirdiyi səbəbkarların sevilən *əsərlərinin təhlilidir.* Kitabxanaçı ilk öncə kitabsevərləri salamlayaraq Xaqani Şirvaninin həyat və yaradıcılığı haqqında məlumatlar verməyə başlayır.

**Kitabxanaçı:**Bildiyiniz kimi Xaqani Şirvani yaradıcılığında mühüm yer tutan əsərlərindən biri də onun "Töhfətül-İraqeyn" poemasıdır. Təəssüf ki, bu maraqlı əsərin düzgün mətni əlimizdə yoxdur. Xaqani Şirvani "Töhfətül-İraqeyn" əsərini təxminən 36 yaşında, 1156-cı ildə yazmışdır. Bu əsərin aydın bir sujet xətti yoxdur. Əsər, şairin hər iki İraqa (İraqi-ərəb, İraqi-əcəm) səfəri zamanı təsadüf etdiyi şəxsiyyətlərin tərifi, şahidi olduğu hadisələrdən aldığı təəssüratın tərənnümündən ibarətdir. "Töhfətül-İraqeyn" Azərbaycan ədəbiyyatı tarixində ilk mənzum səyahət əsəridir.

Burada Xaqaninin səfər zamanı olduğu şəhərlər, gördüyü xalqların içtimai vəziyyəti, təbiət mənzərələri və s. təsvir edilir. XII əsrdə Yaxın Şərqdə olan bəzi dövlət xadimlərinin, mədəni adamların adları çəkilir və yazıçının şəxsi tərcümeyi-halına aid olduqca mühüm məlumat verilir. “Töhfətül-İraqeyn” əsəri dilinin sadəliyi və məzmunun aydınlığı etibarı ilə Xaqaninin qəsidə, qəzəl, mərsiyə və rübailərindən əsaslı surətdə fərqlənir. Bu əsər əsasən 4 hissəyə bölünür.

1. “Töhfətül-İraqeyn” də şairin tərcümeyi-halını izah edən cəhətlər;
2. İraqeyn şəhərinin ( Bağdad, Şam, Mədinə) Kuhistan və s. təsviri;
3. Tarixi simalar haqqında verilən məlumatlar;
4. Fəlsəfi motivlər.
5.

Əsərin qısa məzmunu belədir:
Şair öz sözlərini günəşə xitabla başlayır və səfər zamanı aldığı təəsüratı günəşə nağıl edir. Dünyada vəfadan və ədalətdən bir əsər qalmadığını söylədikdən sonra o öz mənzum səfərnaməsini belə başlayır: “Elə ki, zəmanənin padşahı mənə, Şirvan həbsxanasından (saraydan) çıxmağa icazə verdi, mən öz iradəmlə bədənimi sürüyərək, səhraya üz tutub, Şirvanın bəla dolu səhnəsindən İraqa tərəf hərəkət etdim. Qara dənizi arxada buraxaraq “Səfid rudun” o biri tərəfinə keçdim. 8 behişt mislində olan Kuhistanın 7 vilayətini gəzdim. Buranın torpağı İsaya tutiya verirdi, daşı Musaya kimya bəxş edirdi. Hər tərəf çiçəklik, gülüstandır. Bu yer Xuzistanı və Hindistanı geridə qoyur. Bu cür cənnət kimi gözəl bir yer cəhənnəm əhlinin əlində gör necə əzilib getməkdədir! Adamları qaniçən və gecə

oğrularıdır. Hamısı məqsədsiz və sənədsiz adamlardır. Min hiylə qurub yol kəsməklə məşğuldurlar. Üzə gülürlərsə də, ürəklərində ilan qıvrılır. Heç kəsə rəhm etməzlər cövr və cəfadan başqa bir hünərləri yoxdur. Zahirdə şirin dilli görünürlər, amma batinləri zəhərlidir." Şair Kuhistandan keçərək. Iraqi-Ərəbə çatır. Yolda bir çəmənlikdə o, xəlifənin ova çıxdığını görür və burada xəlifənin vəziri Cəmaləddin İsfahani ilə tanış olur. Xaqaninin bu vəzirlə etdiyi söhbət olduqca maraqlıdır. O, bu söhbəti belə nağıl edir.

Oxudum, dinlədi o söz həkimi,
Bəyəndi ürəkdən şeirlərimi.
Dedi:-Adın nədir, söylə mənə sən,
Əslin haralıdır? kimsən? Nəçisən?
Dedim:-Tələbəyəm, həmdə sözbilən,
Şirvan şəhərində doğulmuşam mən.

Sonra, Xaqani özünü bir söz ustadı kimi öyərək xəlifə ilə görüşmək arzusunda olduğunu bildirir. Cəmaləddin xəlifə qarşısında öz biliyindən danışmağın qorxulu olduğunu deyib, üzüyünü ona hədiyyə verir. Xaqani bu səfərdən Şirvana qayıtdıqdan sonra Axsitan şah üzüyü ondan tələb edir. Xaqani Şirvani belə bir zorakiliyin ədalətsizlik olduğunu söyləyərək, üzüyü vermək istəmir. Şah bu cavabdan qəzəblənərək, üzüyü daha təkidlə tələb edir. Şair şahın təklifini yenə rədd edir. Bu hadisə şahla onun arasında əvvəldən mövcud olan ziddiyyəti tamamilə açmış olur. Xaqani üzüklə əlaqədar olaraq baş vermiş bu çəkişməni qeyd etdikdən sonra, təfəkkür aləmində Xızrla söhbətindən söz açır və səfəri zamanı gördüyü şəhərləri bir-bir təsvir etməyə başlayır. Xaqaninin sənətkarlığını öyrənmək

nöqteyi nəzərindən də bu təsvirlərin böyük əhəmiyyəti vardır. Bunların içərisində Azərbaycan xalqının qədim paytaxtı Həmədan şəhəri xüsusi bir sevgi ilə təsvir edilmişdir. “Həmədanın suyu lətafətdə bal kimidir, küləyi zəfəran ətri verir... Əgər kəndlisi yerə qanqal əksə, torpağı zəfəran bitirər... Əgər İraq həyat beşiyidirsə, Həmədan onun gəlinidir. İraqın ətrafında bağ yoxdur, amma Həmədan məna baharıdır. Əgər sən Həmədanda yurd salıb qalsan, həm taleyin üzünə gülər, həm də hər səhər-axşam iki bayram görərsən...” Əsərdə habelə İraqeynin ayrı-ayrı şəhərlərinin təsviri və s. vardır ki, burada onların hamısını göstərmək istəmədik.  Xaqani Şirvani tarixi şəxsiyyətlərlə çox bağlı olan bir simadır. Hindistandan tutmuş İraqeynə qədər Yazın Şərqin bir çox şair və alimləri Xaqanini tanımış, onunla məktublaşmış və ona hörmət etmişlər. Odur ki, şair “Töhfətül-İraqeyn”də səyahəti zamanı tanış olduğu müxtəlif əqidəli, müxtəlif dünyagörüşünə malik çoxlu mədəniyyət adamları haqqında söhbət açır, bunlardan bir çoxunu etiramla tərif edir. O, Həmədanı təsvir edərkən Həmədan alimi Məcdəddin Xəlili, Fəxrəddini, İmadəddini  tərif edir və Həmədanda təşkil edilmiş alimlər məclisi haqqında danışır. Bağdadı təsvir edərkən şair o dövrün Bağdad alimləri Şəhabəddin Əbu-Nəsr Yusif Diməşqin, onun qardaşı Fəxrəddin Diməşqini, alim İzzəddin Əşəri və Ziyəddin Əbu Nəhifi tərifləyir. “Töhfətül-İraqeyn” də  Xaqaninin elmi-fəlsəfi və didaktik fikirləri də müəyyən dərəcədə ifadə edilmişdir. Bu fikirlər əsas etibarı ilə şairin Xızrla söhbəti zamanı özünü göstərməkdədir. Şərq ədəbiyyatında və folklorunda yeri gəldikcə yaşıllıq, bahar və çiçək simvolu kimi, dəniz fəlakətinə düşənlərin xilaskarı kimi xatırlanan əfsanəvi Xızrı şair tamamilə yeni bir sifətdə təsvir edir. “Töhfətül-İraqeyn”

əsərində Xızr səhər günəşi və ağıllı nəsihətlər verən müdrik bir sima kimi təsvir edilir. Xaqaninin "Divan"ında da Xızrla əlaqədar fikirlərə çox rast gəlirik. Məsələn;

Sübh dəman duş Xızr bər dərəm aməd betab.
Kədr be avaz-e nərm səbbəhəkəlləh xetab.

"Dünən sübh çağı Xızr ( günəş) nura bürünərkən qapıma gəldi, mehriban səslə mənə "sabahın xeyir"-dedi". "Töhfətül-İraqeyn" əsərində də Xızr (günəş) sübh vaxtı Xaqaninin qapısını açaraq daxil olur. Xaqani Şirvani bu vaxt təfəkkür aləmində olduğunu yazır.

Gözümü dünyaya açarkən səhər
Al-əlvan don geymiş gördüm üfüqlər.
Bir səhər nəfəsi, bir aşiq ahı
Duydum, seyr edəndə gülən sabahı.
Səhərin bayrağı yüksələn zaman
Birdən daxil oldu Xızr qapımdan.

Bu xəyali Xızrla şair arasında cərəyan edən söhbət çox maraqlıdır. Bir bədii vasitə kimi şair, Xızrla söhbətdən istifadə edərək öz sənətkarlığını yüksək qiymətləndirir, dünyanın quruluşu haqqında fikir söyləyir və zəmanədən şikayətlər edir. Şair Xızrın dili ilə öz zəmanəsinə belə qiymət verir:

İndi, bax, zəmanə korlanmışdır, ah!
Cəmşid qul olmuşdur, kor dev- padşah.
Get bu şər qapıdan, Xaqani, Hökmən-
Haqqın dərgahına pənah apar sən!

Xaqani Şirvani Xızrın dili ilə “get bu şər qapıdan” dedikdə Şirvanşah Axsitanın sarayını nəzərdə tutur. Sonra dünya quruluşu haqqında verdiyi suala cavab olaraq Xızr (yəni Xaqani özü) fələklərin ağıl və fəhmindən uzaq olan sirlərini bilməyin çətin olduğunu deyir və geosentrik nəzəriyyə irəli sürərək, yerin şərafətindən söhbət açır.

Qəza pərgarını sancıb dərinə,
Qoydu ilk nöqtəsini yer üzərinə.
Hər xət bir nöqtənin təkamülüdür,
Kainat yer ilə şərafətlənir.
Torpaq cövhəridir bu kainatın.
Torpaq xəzinəsidir cəvahiratın.
Dünyanın beşiyi olmuş bu torpaq.
Mənalar torpaqdan doğmuşdur ancaq.
Əgər öz meylini salsan sən yerə,
Artar şərafətin birə min kərə.

Bu sözlərin ardınca deyilir ki, torpaq üzərində yetişən insan öz ağlı sayəsində günəş məqamına yüksələ bilər. Şair bu fikri başqa bir yerdə daha açıq söyləyir:

Ağlın mayasında bir zərrə ikən,
Yenə də ağlımla günəş oldum mən.

Fikrimizi yekunlaşdırıb deyə bilərik ki, “Töhfətül-İraqeyn” sadəcə bir səyahətnamə olmayıb, eyni zamanda, şairin tərcümeyi-halını, elmi-fəlsəfi görüşlərini şəhr edən, XII əsr tarixi şəraiti haqqında müəyyən məlumat verən, çox maraqlı poemadır. Bu poemaya Xaqaninin özü tərəfindən nəsrlə

yazılmış müqəddimə isə xüsusi əhəmiyyətə malikdir ki, bu barədə danışmaq vacibdir.

Kitabxanada şairdən bəhs edən müxtəlif tədbirlər və eləcə də ədəbi-bədii gecə keçirilir. Xaqani Şirvaninin xatirəsinə həsr olunmuş *"Xaqani, səndə bu himmət var ikən,"* adlı ədəbi–bədii gecəyə Azərbaycanın gorkəmli ədibləri, sənət-söz adamları, oxucular, məktəblilər dəvət olunur. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Şairin kitablarından ibarət kitab sərgisi qonaqlar tərəfindən rəğbətlə qarşılanır. Gecənin qonaqları ilk öncə "Xaqani Şirvani haqqında veriliş" in slaydına baxmağa dəvət edilir. Gecəni açıq elan etmək üçün aparıcılar səhnədə öz yerini alır. Hər iki aparıcı qonaqları salamlayaraq, onlara gecədə iştirak etdikləri üçün təşəkkürünü bildirlər.

**I aparıcı:** Şairləri qartala bənzədirlər. Axı, qartallar zirvədə yaşayır, şairləri də, yüksəklik həmişə özünə səsləyir. Axı, qartallar mavi səmalarda süzüb yerə, insanlara, həyata tamaşa eləməkdən həzz alırlar. Şairlər də həyatın fövqündə dayanıb həyata baxır. Onlar həyata uzaqdan baxmaq istəmir. Azərbaycan milli mədəniyyətini min bir ulduzlu göyə bənzətmək olar. Bu sönməz ulduzların arasında ən gur işıq saçanların, öz şəkli, öz adı və öz səmti olanlardan biri də Əfzələddin Xaqani Şirvanidir. Xaqani bizə xalqın ürəyindən axıb gəlmişdir. Onun həmişəcavan poeziyası şeir aşiqlərinin qəlbində, dilində doqquz əsrə yaxındır ki, ömr sürüb, damcı-damcı bir yerə toplanıb və bugün bizim gördüyümüz ümmanı yaradıbdır.

**II aparıcı:** Möhtərəm qonaqlar! Gəlin biz də dahi sənətkar, böyük insan, Yaxın şərqin ilk intibah carçılarından olan Xaqani

Şirvaninin məhz bu vüqarlı, əzəmətli, iradəli obrazı qarşısında başımızı əyməklə, bir daha onun ölməz yaradıcılığına öz qədirşünas münasibətimizi bildirək!

**I aparıcı:** Şamaxı ədəbi mühitində öz gözəl şeirləri ilə artıq diqqət mərkəzində olan 18 yaşlı şairin sorağı Şirvanşahlar sarayına çatır və gələcək qaynatası, məlikküşşüəra Əbül Üla Gəncəvinin tövsiyyəsi ilə o, sarayda fəaliyyətə başlayır. İlk çağlarda şairin qarşısında böyük yaradıcılıq imkanları açılır. O, əla bildiyi ərəb, fars və türk dillərində saray kitabxanasında mövcud olan qiymətli ədəbi və elmi əsərləri acgözlüklə oxuyur, öyrənir, məhəbbət şeirlərini, mədhiyyələrini yazır, maddi cəhətdən təmin olunur. Ona bir şair kimi ən yüksək zirvədə durduğunu təsdiq edən "Xaqani" təxəllüsü verilir.

**II aparıcı:** Ədəbiyyatımızı dərin ümmana oxşatsaq, Xaqani poeziyası onun qoynunda böyük bir etiqad və inamla uzaqlara üzən, qərinələrin tufanında sarsılmayan əzəmətli bir gəmidir. Xaqani bu şeiriyyətin uzaq görən, çox məharətli, qasırğalara dəyanətlə köks gərən müdrik bir kapitandır. Xaqaninin dili olduqca sadə, ahəngdardır. Şeir dilimizin saflığı onun adı ilə möhkəm bağlıdır.

**I aparıcı:** Xaqani Şirvani vətənini dərin bir məhhəbbətlə sevən bir şair idi. Daim vətəni tərənnüm edən şeirləri, əsərləri bu günə qədər sevilir və hər bir gəlcək nəslə örnək və nümunədir. Şairin yazdığı "Savalan dağının tərifi" vətənpərvərlik mövzusunda yazılmış öz qiymətli fikri-bədii keyfiyyətləri etibarı ilə xüsusi yer tutan əsərdir.

Şamaxı! Ey mənim sevimli yurdum,...

və ya

Ümidim, pənahım Təbrizdir, Təbriz,
O şəhər də mənə mehriban, əziz...

**II aparıcı:** Bəli, gözəl, səmimi kəlam ilk növbədə Xaqaninin bütün varlığı ilə doğma yurduna bağlılığının, Şirvana, Şamaxıya bəslədiyi sonsuz məhəbbətin yüksək bədii təzahürü kimi qiymətlidir. Lakin sona doğru əsərdə ikinci bir motiv-Təbriz mövzusu boy göstərir və sənətkar onu son dərəcə təbii bir ahənglə birinci mövzuya peyvənd edir, nəticədə həm Şamaxı, həm də Təbriz daxil olmaqla bütöv, böyük Azərbaycan mövzusuna qovuşur və bundan qürur duyur.

**I aparıcı:** Xaqaninin bu könüloxşayan beytləri indi hamımızın ən həssas duyğumuza çevrilmiş Cənubi Azərbaycan probleminə dair cildlərlə kitabın epiqrafı olacaq dərəcədə aktual, təbii və ahəngdar səslənir. Şimali Azərbaycanla Cənubi Azərbaycan bir-birinə ədəbilik bağlayan bu canlı atributlar (Şamaxı ana, Təbriz ata, şair isə bir qədər ərköyün təbiətli əziz övlad) Azərbaycanımızın vəhdətini tərənnüm etmək baxımından dahi Xaqaninin əsrlərin arxasından həm o tayda nəsillərimizə vüqarla təqdim etdiyi təkrarsız mənəvi ərməğandır.

**II aparıcı:** Xaqani Şirvani yalnız Azərbaycanın yox, bütün Yaxın Şərq ədəbi-içtimai fikrinin XII əsrdə yetirdiyi ən görkəmli simalardan biri, sənətinin bəzi əzəmətli keyfiyyətləri ilə birincisidir. Tədqiqatçılar haqlı olaraq onu ədəbiyyatımızda fəlsəfi qəsidənin banisi, ilk və ən güclü məsnəvilərin, incə ruhlu qəzəllərin və müdrik rübailərin, nəhayət, kamil mənzum səyahətnamənin yaradıcısı kimi çox yüksək qiymətləndirirlər.

Şair xalqın ehtiyaclarına, qüssəsinə və kədərinə bələd idi, onun dərdinə ürəkdən yanırdı və şairin bir çox misralarını

doğuran da məhz bu yanğı idi. Xaqani Azərbaycan tarixinə görkəmli dövlət xadimi kimi də daxil olmuşdur.

**I aparıcı:** Xaqani indi də bizim müasirimizdir. Onun şeiri öz bədii-estetik dəyərini, içtimai ruhunu daim saxlayır, yüksək ideallar uğrunda mübarizədə bizimlə addımlayır. Xaqani poeziyası özündən sonrakı ədəbi prosesə ciddi
təsir göstərmişdir. Xaqani öz dövrü üçün əsl yenilikçi sənətkar olmuşdur. Ədəbiyyatımızın Xaqani mərhələsi şeirdə xəlqiliyin, realistik təsvirlərin qüvvətlənməsi, canlı xalq dilinin ədəbi dilə nüfuz etməsi ilə səciyyələnir.

**II aparıcı:** Tədqiqatlarda Xaqani Şirvani ilə Nizami Gəncəvi arasında səmimi dostluq əlaqələrinin olduğu barədə maraqlı məlumatlar var. Xaqani və Nizami yaradıcılığı bir-birini təsdiq edən, tamamlayan, eyni bir dövrün poetik əks-səda olan, ayrılan cizgiləri birləşən, vəhdət yaradan cəhətlərdən olduqca az olan iki qüdrətli poetik hisdir. Hər iki sənətkar dövrün ən mühüm məsələlərində eyni cəbhədə dayanır, şərə, eybəcərliyə, nadanlığa qarşı eyni mövqedən atəş açır, eyni ideallarla çıxış edirlər.

**I aparıcı:** Xaqani ilə Nizamini təkcə saraylar deyil, bütün dövr, zaman, cəmiyyət narahat edir. Hər iki şair dövrünün hünərsiz, nadan hakimlərindən şikayətlərdə həmrəy və həmfikirdirlər. Hər iki şairin yaradıcılığında güclü bir inkarçılıq ruhu vardır. İnsana zidd baxış, görüş və ehkamların inkarıdır. İntibah dünyagörüşünün orta əsr şəri, eybəcərliyi qarşısındakı dəhşətidir. Xaqaninin "Töhfətul-İraqeyn", "Mədain xərabələri" və başqa əsərlərində, Nizaminin "Xəmsə" sində və lirik əsərlərində gözəlliyi təsdiqə yönələn bu inkarın parlaq nümunələri ilə qarşılaşırıq.

**I aparıcı:** Xaqani Şirvaninin əsərləri tədqiq edildikdə onun öz dövründəki əsas elmlərə yaxşı bələd olduğu meydana çıxır. Azərbaycan alimlərindən Məhəmmədəli Tərbiyyət Xaqaninin elmləri necə dərindən bildiyi haqqında belə yazır: "Xaqani Şirvani" öz dövrünün işlənməkdə olan elmlərinin çoxuna, xüsusən hikmət, heyət, nücum, musiqi elmlərinə yaxşı bələd idi. Onun əsərlərində bu elmlərdən çox istilahlar vardır; o, tarixi də gözəl bilirdi.

**II aparıcı:** Xaqani Şirvani qəsidələrinin birində bu haqda bildirir.

Kodam elm kəzu əql-e mən nəyaft əsər,
Beyazam məra ta bebini acarəm.

"O hansı elmdir ki, mən onu bilmirəm? -məni sınamaq istəyirsən, əsərlərimə diqqət et". Xaqani bu fikri ərəb dilində yazdığı bir əsərində də təkrar edərək demişdir: "Mən elmlə şərafətlənib onun sayəsində şöhrət tapıram".

**I aparıcı:** Xaqaninin təkcə nücum elminə dair XII əsr astrologiyasına tamamilə müvafiq olan təbir və fikirləri onun bu elmlə nə qədər mükəmməl bələd olduğunu aydın göstərir. Xaqaninin nücum elminə yaxşı bələd olduğu üçündür ki, ulduzların hərəkətinin küreyi-ərzə və ya insan taleyinə xeyir və zərər verəcəyinə inanmamışdır. Şair "elm" dedikdə yalnız "dini elmləri" deyil, eyni zamanda dövründəki dəqiq elmləri, təbiət elmlərini də nəzərdə tuturdu.

**II aparıcı:** Xaqaninin elmə verdiyi yüksək qiymət onun "Töhfətul-İraqeyn" əsəri ilə məhdud qalmayıb, "Meratussəfa" adlı "Xorasanyabəm" rədifli və s. qəsidələrində, qəzəl, qitə, və

rübailərində də dəfələrlə öz ifadəsini tapmışdır. Onun dini ehkamlara tənqidi münasibəti də elmə yüksək qiymət verməsi ilə üzvü surətdə bağlıdır.

**I aparıcı:** Xaqani Şirvani Azərbaycan qadınlarının hüquqsuzluğunu, qara çadra altında keçən həyatını ölümdən betər sayır, onların halına acıyırdı. Şair qadınlığa olan münasibətini kiçik qızının ölümü münasibəti ilə yazdığı qitədə belə ifadə edir:

Yenicə doğulan qızım gördü ki,
Qarşıda gözlənir min bəla, öldü.
Qeybdən gələn o töhfə duydu ki,
Dərdlərə olacaq mübtəla, öldü.
O, böyük qızımı pərdədə görcək.
Dedi:-Kifayətdi, bu cəfa, öldü.

**II aparıcı:** Xaqani şeirin, sənətin tərbiyəvi gücünə inanır, şairlik sənəti haqqında deyirdi: "Hər tərbiyəçi şairliyi bacarmaya bilər. Lakin hər şair tərbiyə verməyi bacarmalıdır."
**I aparıcı:** Saraydan üz döndərmiş şair daim xalqına arxalanmış, özünü Xaqani deyil, Xəlqani adlandırmış, dərvişi sultandan daha ləyaqətli saymış, qəlbin saflığını, könültoxluğunu, düzlüyü, təmiz eşq və məhəbbəti tərənnüm etmişdir. Xaqani Şirvani eyni zamanda öz yurdunu sevən alovlu vətənpərvər, humanist bir şair olmuşdur. Xaqaninin əsərlərində cazibədar vətən torpağının mənzərələri parlaq təsvir edilir. Yüksək bədii dil qızğın ürəklə ana məhəbbətini, əhdə vəfanı tərkedilməz sənətkarlıqla tərənnüm edən Xaqani öz

zəmanəsindən razı qalmamışdır. Şair bir şeirində sonsuz ürək ağrısı ilə demişdir.

**II aparıcı:** Çox zəhmət çəkdim mən arzu yolunda
Taleyim üzümə gülmədi bir an.
Dünyaya sığmayan hikmətim vardı.
Ona dar gəlirdi hər iki cahan.
Mənə verilənlər olmadı layiq.
Layiq olanı da vermədi dövran.

**I aparıcı:** Şairin həyatının son illəri çox ağır keçdi. Onun çox sevdiyi ailə üzvləri -20 yaşlı cavan oğlu, qızı və arvadı bir-birinin ardınca vəfat etdilər. Qoca şair tamamilə tək qaldı. Ömrünün bu dərdli günləri haqqında bir çox mərsiyələr yazdıqdan sonra, nəhayət, 1199-cu ildə Xaqani Şirvani vəfat etdi və Təbriz şəhəri yaxınlığında, sonralar "Məqbərət-üş-şüəra" adlanan Sürxab qəbristanında dəfn edildi.

**II aparıcı:** Xaqani Şirvani olduqca mürəkkəb yaradıcılığa və özünəməxsus bədii ifadə tərzinə malik olan bir bir sənətkardır. Azərbaycan klassikləri içərisində ancaq o, əruz vəzninin, demək olar ki, bütün bəhrləri üzrə şeir yazmışdır. Xaqani qüdrətli bir şair olduğundan, öz dövründə və sonrakı əsrlərdə geniş şöhrət qazanmışdı. Azərbaycanın və Yaxın Şərqin onlarla adlı-sanlı şairləri onu özlərinə ustad hesab etmiş və onun ayrı-ayrı əsərlərinə iftixarla nəzirələr yazmışlar.

**I aparıcı:** Xaqani ənənələrini davam etdirən şairlər sırasında inqilabçı-demokrat şairimiz Azərbaycan şeirində inqilabçı satiranın böyük siması Mirzə Ələkbər Sabir də vardır. Sabir öz şeir yaradıcılığında Nizami ənənələri ilə birlikdə Xaqaninin mübariz, üsyankar ruhunu yaşatmağa çalışmış, onun əsərləri və

həyatı ilə yaxından maraqlandığını bildirmişdir. Sabirin Xaqani ilə tanışlığı çox tez, inqilabçı satirikin gənclik illərində başlamışdır.

**II aparıcı:** Şairin qəzəllərinə bəstəkarlarımız gözəl musiqi bəstələmiş, heykəltəraşlarımız, rəssamlarımız onun obrazını yaratmış, əsərlərinə şəkillər çəkmişlər. Lakin bütün bunlar böyük şairimizin ədəbi irsini bütünlüklə xalqımıza çatdırılmasını hələ təmin etmir.

**I aparıcı:** İndi Xaqani Şirvaninin əsərlərinin demək olar ki, əksəriyyəti dilimizə tərcümə edilmişdir. Onların içərisində əla tərcümələr az deyil. Şübhə yoxdur ki, bu iş gələcəkdə də davam etdiriləcək və Əfzələddin Xaqaninin əsərlərinin Azərbaycan dilində yeni, tam külliyyatı hazırlanıb nəşr olunacaqdır.

**II aparıcı:** Biz Azərbaycan xalqının olduqca zəngin mədəniyyət tarixini, Azərbaycan ədəbiyyatı dahilərinin əsərlərini əziz tutmalı, onların qədrini bilməli və dərindən öyrənməliyik. Xalqımız Azərbaycan və eləcə də hər bir xalqın tarixi-mədəni irsinə yüksək qayğı bəsləyir. Azərbaycan Prezidenti İ.Əliyev cənabları milli mədəniyyətimizin parlaması üçün bütün şəraiti yaratmaqdadır. İ.Əliyev bu işə yaxından rəhbərlik və nəzarət edir. Biz bu mühüm göstərişlərə əsaslanaraq öz keçmişimizi, mütərəqqi yazarlarımızı böyük iftixar hissi ilə öyrənib tədqiq etməliyik.

**Ədəbiyyat siyahısı:**

*ƏSƏRLƏRİ*

Seçilmiş əsərləri : Poeziya. - Bakı : Lider nəşriyyatı, 2004. - 672 s. - (Klassik Azərbaycan Ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Seçilmiş əsərləri : Poeziya. - Bakı : Altun kitab, 2005. - 327 s. - (Azərbaycan Klassik Poeziyası)
Dahi şairimiz Xaqani Şirvaninin bu kitabında onun ən məşhur əsərləri verilmişdir. Bunlardan misal olaraq ən məşhur poeması olan "Töhfətül-İraqeyin" (İki İraqın töhfəsi), "Zəmanədən və zəmanə əhlindən şikayət", Qəzəllər, Qitələr, Fəxriyyə, Mədhiyyə və s. kimi əsərləri öz əksini tapmışdır.

Seçilmiş əsərləri : Poeziya - Bakı : Çaşıoğlu, 2006. – S. 3-183: portr. - (Azərbaycan Ədəbiyyatı).

Seçilmiş əsərləri [Elektron resurs] : Poeziya / məsl. L. Məmmədova [et al.] ; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Elektronik mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : il. - (Nizami layihəsi) - (qutuda)
Bu topluda 1126-1199-cu illərdə yaşamış görkəmli Azərbaycan şairi Xaqani Şirvaninin "Töhfətül-İraqeyn", "Fəxriyyə" və s. kimi məşhur əsərləri, qəzəlləri, qitələri, rübailəri oxuculara təqdim olunur.

***HAQQINDA KİTABLARDA***

**Latın qrafikası ilə**

Xaqani Şirvani // Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. c.II. – B.: Elm, 2007. – S. 413-461.

Qacar Ç. Poeziya Xaqanı : Xaqani Şirvani // Azərbaycan qədim və orta əsrlərdə. Görkəmli şəxsiyyətlər. - B. : Oka Ofset, 2012. - S. 98-107.

Nəbiyev B. Ə. Əfzələddin Xaqani Şirvani (1126-1199) // Şamaxı torpağının yetirdiyi böyük Azərbaycan şairləri : elmi-kütləvi oçerklər. - Bakı : Ozan, 2012. - 288 s.

XII əsrin görkəmli Azərbaycan şairi Əfzələddin Xaqaninin həyat və yaradıcılığna həsr olunan milli seminarın materialları. - Bakı : Xatun Plyus, 2009. - 65 s.

Soltanov M. Xaqani Şirvani (1126-1199) // Şair və yazıçılarımızın həyatından maraqlı anlar. - Bakı : "AM 965" MMC, 2010. - S.7-9.

Yusifli X. Xaqani və Nizami // Nizami Gəncəvi: Sələflər və xələflər - Bakı : Adiloğlu, 2011. - 480 s.

***Kiril qrafikası ilə***

Araslı H. Xaqani Şirvani : Şairin həyatı və zəngin irsi haqqında. - Bakı : Yazıçı, 1982. - 62 s.
Sultanov M. S. Xaqani Şirvani : Həyatı və yaradıcılığı haqqında. - Bakı : Azərnəşr, 1954. - 112 s.

## ***DÖVRİ MƏTBUATDA***

Anar. Xaqani - 25 : Azərbaycan Yazıçılar Birliyi - 75 // Ədəbiyyat qəzeti. - 2009. - 4 dekabr. - N 46. - S. 1-2.

Fərəcov S. Fəth etdi söz ilə bütün dünyanı... : Xaqani

yaradıcılığında sözün dəyəri // Mədəniyyət. - 2013. - 10 iyul. - № 49. - S. 15.

Xaqani Şirvani (1126-1199) // Savalan. - 2008. - 12-15 dekabr. - S. 2.

Mehdibəyova M. Klassik Azərbaycan ədəbiyyatında qəriblik mövzusu // Azərbaycan. - 2006. - №7. - S.167-171.

Mehrəliyeva N. Söz mülkünün Xaqanı : Əfzələddin Xaqani Şirvani haqqında // Yeni Mədəni-maarif jurnalı. - 2008. - № 4. - S. 20-22.

Məmmədov E. Xaqaninin yenə də bəxti gətirmədi // Ədəbiyyat qəzeti. - 2016. - 16 yanvar. - № 2. - S. 9.

Milli seminar : Əfzələddin Xaqani-810 // Mədəniyyət. - 2009. - 11 dekabr. - N 87. - S. 1.

Nəbiyev B. Poetik istedadla həyat həqiqətinin nadir vəhdəti : Beynəlxalq Xaqani seminarı // Ədəbiyyat qəzeti. - 2010. - 8 yanvar. - № 1. - S. 1-2. - Məqalə müəllifin Beynəlxalq Xaqani seminarında (Bakı - 11 dekabr 2009-cu il) çıxışı əsasında yazılmışdır.

Sabutay. Söz mülkünün xaqanı : Xaqani - 810 / Sabutay. // Mədəniyyət. - 2009. - 18 dekabr. - № 88. - S. 5.

Üsyankar Xaqani // Ədəbiyyat qəzeti. - 2011. - 15 iyul. - № 26. - S. 1.

Yusifli V. Müdrikliyin qələbəsi : ədəbi tənqid tariximizdən : Xaqani yaradıcılığı // Ədəbiyyat qəzeti. - 2016. - 6 fevral. - № 5. - S. 24.

## *Xaqani Şirvaniyə həsr olunmuş bədii əsərlər*

Çəmənli M. Xaqani Şirvani : hekayə // Savalan. - 2014. - 10-13 yanvar. - № 1. - S. 3,8.

Hüseynov Ə. Üsyankar Xaqani : romandan parça : rus dilindən tərcümə // Azərbaycan. - 2011. - № 4. - S. 129-159.

Xəlil Z. Şairin yuxusu : Pyes // Seçilmiş əsərləri. - B. : Öndər, 2004. - S.151-258.

İsmayılov M. Xaqani : Tarixi roman. - Bakı : Yazıçı, 1983. - 360, [1] s. – kiril qrafikası ilə.

Rahim M. Xaqani : mənzum dram // Seçilmiş əsərləri. 2 cilddə. - B. : Avrasiya Press, 2006. – C.2. -  S. 201-366.

Ədəbiyyat siyahısı Məlumat-biblioqrafiya şöbəsinin müdiri Sevil Əhmədovaya aiddir.

**Söz mülkünün Xaqanı**

(metodik vəsait)

**Kompyuter yığımı**
**və dizayn:** ***Aynurə Əliyeva***

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
URL:www.clb.az

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 16
Çapa imzalanmışdır: 115.08.2016
Tirajı: 100
Pulsuz.